***On səkkiz il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu cənab İlham Əliyevə səs verməklə ulu öndər Heydər Əliyevin siyasi kursuna sadiqliyini göstərdi, sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını təsdiqlədi.***



***İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

# Siyasi varislik missiyası

Prezident İlham Əliyev keçən illər ərzində Azərbaycan siyasi sisteminə rasional davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, milli məqsədlərə xidmət edən və realizmə söykənən fəaliyyət nümunəsi gətirdi. O öz müdrik fəaliyyəti və davranışı ilə siyasi sistemimizə mədəniyyət, milli mənəviyyatımıza uyğun əxlaq standartı, milli etika nümunəsi təqdim etdi.

Dövlətimizin başçısının xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edərkən demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlər xüsusi vurğulanmalıdır. Tərəddüdsüz qeyd etmək olar ki, demokratik inkişaf yolunda həyata keçirilən sistemli tədbirlərin qanunauyğun nəticəsi kimi Azərbaycanda təkmil siyasi sistem bərqərar olunub. Qanunvericilik bazasının təkmilləşdirilməsi, hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı demokratik cəmiyyətin inkişafını reallaşdırıb.

Onu da deyək ki, 2003-cü ildən etibarən Prezident İlham Əliyevin apardığı sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlətimizin başçısının iqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi istiqamətində atdığı ardıcıl və səmərəli addımlar bunu bir daha təsdiqləyir. Azərbaycan Prezidentinin imzaladığı fərman və sərəncamlar əsasında həyata keçirilən sosial layihələr vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərir.

Dövlətimizin başçısı prezidentliyin ilk dövründən etibarən dayanıqlı inkişaf üçün əsaslı addımlar atıb. Müstəqilliyin və ideoloji dayaqların daha da möhkəmləndirilməsi, vətəndaş həmrəyliyinin bərqərar olması üçün Azərbaycan dövlətinin milli maraqlarının qorunmasını diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb.

Ölkəmizin gələcək rifahını təmin edən addımların atılması önə çəkilib. Dövlətimizin başçısının rəhbərliyi ilə ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gerçəkləşdirilib. Nəhəng infrastruktur layihələri həyata keçirilib. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması respublikamızın beynəlxalq aləmə çıxışını reallaşdırıb. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi isə təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm təsir göstərib.

Dünyada enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan rolu ölkəmizin beynəlxalq münasibətlər sistemində müstəqil aktor kimi statusunu təsbit edib. Neft-qaz sahəsində əldə olunan uğurların ardıcıl xarakter daşıması isə ölkəmizə Trans–Anadolu və Trans–Adriatik qaz kəmərlərinin çəkilməsinə əlverişli şərait yaradıb. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başlaıb. Xəzərin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqləib. Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı kimi çox böyük tarixi hadisə baş verib. Asiyanı Avropa ilə birləşdirəcək Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin, Azərbaycan neftini bibaşa dünya bazarına çıxaran Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələrin icrasına nail olunub.

Ötən 18 ilə nəzər salanda aydın görünür ki, Prezident İlham Əliyev xalqa verdiyi vədlər bütünlüklə yerinə yetirilib. Dövlətimizin başçısının rəhbərliyi ilə bu dövrdə ölkəmizin bütün sahələrində sürətli inkişafına nail olunub, insanların sosial şəraiti getdikcə yaxşılaşıb. Azərbaycanın siyasi-iqtisadi imkanları genişlənib, beynəlxalq arenadakı mövqeləri möhkəmlənib və 30 il ərzində erməni faşizmi tərəfindən pozulan ərazi bütövlüyümüz bərpa edilib.

Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, eləcə də ölkədə həyata keçirilən iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin diqqətindən bu gün də kənarda qalmır və yüksək qiymətləndirilir.

Beynəlxalq reytinq agentliklərinin proqnozları da bir daha təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olub.

Beləliklə, dövlətimizin başçısı ötən 18 illik prezidentlik fəaliyyəti dövründə Azərbaycanı həm iqtisadi, həm də siyasi cəhətdən gücləndirdi, regionun lider dövlətinə çevirdi, nəhəng nəqliyyat-kommunikasiya, neft, qaz, enerji layihələrinin təşəbbüskarı kimi çıxış etdi. Bununla da Azərbaycanın Ermənistana və bütün dünyaya Cənubi Qafqazda ən güclü dövlət olduğunu göstərdi.

Ümumiyyətlə, dövlətimizin başçısı 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəfləri gerçəkləşdirmək üçün ötən müddətdə istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və “güclü dövlət” konsepsiyasını reallaşdırmağa nail oldu. Bununla da dövlətimizin başçısı qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını reallaşdıran, öz fəaliyyətində Azərbaycan dövlətinin maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətə yönəldən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi liderə çevrildi.

Onu da qeyd etmək yerinə düşər ki, dövlətimizin başçısı fəaliyyəti dövründə silahlı qüvvələrimizin modernləşməsini də diqqət mərkəzində saxlayırdı. Yeri gəlmişkən, ulu öndər Heydər Əliyev yenidən ölkəyə rəhbərliyə başlayandan sonra sosial-iqtisadi, demokratik islahatlarla bərabər, mükəmməl nizami ordunun da əsasını qoyuldu. Prezident İlham Əliyev isə son 18 ildə silahlı qüvvələrin fəaliyyətinin gücləndirilməsinə mühüm önəm verdi. Bunun üçün, ilk növbədə, ölkəmizdə milli həmrəylik, xalq-iqtidar birliyi yaradıldı, ciddi kadr islahatı aparıldı, cəmiyyətdə sosial ədalətin yaradılması üçün bir sıra layihələr gerçəkləşdirildi. Eyni zamanda, güclü iqtisadiyyat quruldu, karbohidrogen ehtiyatlarının hasilatı və ixracı istiqamətində xüsusi addımlar atıldı. Dövlətimizin başçısı ordu quruculuğunu bütün yuxarıda sadalananlarla paralel apardı.

Ölkə rəhbəri çıxışlarının birində bu məqama toxunaraq, Ermənistana sarsıdıcı hərbi zərbənin vurulmasında xalq–iqtidar–ordu amilinin əhəmiyyətini yüksək dəyərləndirib: “Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır...”.

Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məqsədi Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkənin 30 ilə yaxın bir dövrdə pozulmuş ərazi bütövlüyünün bərpası idi. Buna görə hər bir atılan addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi – işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. Ötən il sentyabrın 27-də başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin 17 illik gərgin əməyinin nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı.

İkinci Qarabağ müharibəsində əldə edilən möhtəşəm qələbə müstəqillik tariximizin ən parlaq səhifəsidir. Bu zəfər uzun illər ərzində davam edən hazırlıq işlərinin, habelə dövlətin qüdrətinin artırılması istiqamətində atılan addımların məntiqi nəticəsidir. Müdrik siyasət, xalqın dəstəyi və tarixi ədalət Azərbaycanı qalib ölkəyə çevirdi. Ərazi bütövlüyümüzün bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəri kimi tarixə qızıl hərflərlə yazıldı.

Ordu quruculuğu məsələlərinin dövlət siyasətinin prioriteti kimi müəyyən olunması və bu istiqamətdə mühüm tədbirlərin gerçəkləşdirilməsi ötən il sentyabrın 27-də başlanan və 44 gün çəkən Vətən müharibəsində möhtəşəm qələbə əldə edilməsini, ərazi bütövlüyümüzün bərpasını şərtləndirdi.

Azərbaycanda ordu quruculuğu istiqamətində2003-cü ildən etibarən həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsinin aqibəti ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi. Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Qısa müddət ərzində reallaşdırılan layihələr sayəsində silahlı qüvvələrimiz dünyanın ən güclü 50 ordusu sırasında yer aldı. Bunun üçün Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görüldü. Hazırda Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir.

Ölkəmizdə milli təhlükəsizlik strateji vəzifə kimi müəyyənləşdirilib və onun qorunması təmin edilib. Siyasi, iqtisadi, hərbi, sosial, ekoloji və digər istiqamətlərdə təhlükəsizliyin reallaşdırılması strateji maraqların gerçəkləşməsinə və inkişaf dinamikasının davam etməsinə əlverişli şərait yaradıb. Burada informasiya, su, ərzaq, enerji və digər istiqamətlər üzrə təhlükəsizliyə nail olunması ilə bağlı görülən tədbirlər daim diqqətdə saxlanılıb, hər bir istiqamət üzrə qəbul olunan dövlət proqramları mövcud məsələlərdə dövlətin potensiallarının səfərbər olunmasına xidmət edib.

Son 18 ildə iqtisadi sabitliyi təmin edən regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirilib. Dövlətimizin başçısının siyasi portretini formalaşdıran ən mühüm cizgilərdən biri kimi ölkənin bütün bölgələrinin tərəqqisinə səbəb olan regionların sosial-iqtisadi inkişafı konsepsiyası uğurla yerinə yetirilib. Prezident seçildikdən sonra Azərbaycanın bütün bölgələrinin inkişafını strateji məqsəd kimi müəyyənləşdirən ölkə rəhbəri bu istiqamətdə mühüm uğurlara nail olunmasını təmin edib. Regionların sosial-iqtisadi inkişafı respublikamızda yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern islahatlar və digər sistemli vəzifələrin reallaşmasında mühüm rol oynayıb.

Azərbaycan dünyada iqtisadi tərəfdaş ölkə statusunu qazanıb. Bunu isə iqtisadi uğurlarımızın getdikcə böyüməsi, valyuta ehtiyatlarının, o cümlədən, yatırılan investisiyaların həcminin davamlı olaraq artması şərtləndirib. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətlənib, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar uğurla icra olunub, işsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşüb. Bu dövrdə respublikada 2 milyondan çox yeni iş yeri yaradılıb. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşıb.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***